| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZH 150 Azərbaycan tarixi, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim** | T.ü.f.d. Laçın Mustafayev |
| | **E-mail:** | qafqaz8310@rambler.ru |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | Müəllimin təyin etdiyi vaxtda |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat və dərsliklər:**<br>1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı. "Elm". 2007. 520 səh. + 40 səh. illüstrasiya.<br>2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. "Elm". 2007. 608 səh. - 24 səh. illüstrasiya.<br>3. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. “Elm”. 2007. 692 səh. + 56 səh. illüstrasiya.<br>4. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. “Elm”. 2007. 504 səh. + 48 səh. illüstrasiya.<br>5. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya.<br>6. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.<br>7. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.<br>8. Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, 412 s.<br>9. Azərbaycan tarixi. I cild, Az. SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı, 1961, 420 s.<br>10. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, “Çıraq”, 2009, 872 s.<br>11. Azərbaycan tarixi. I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı, 2005.<br>12. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Bakı, “Elm və Təhsil”, 2019, 499 s.<br>13. Nuriyeva İ. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı, “Elm və təhsil”, 2019, 624 s.<br>14. Mühazirə mətnləri.<br><br>**Əlavə ədəbiyyatlar:**<br><br>15. Azərbaycan tarixi üzrə qaynaqlar. “Azərbaycan Universiteti Nəşriyyatı”. Bakı, 1989, 328 s.<br>16. Avşarova İ.N., Pirquliyeva Q.Ə. Qafqaz arxeologiyası. Dərslik, Bakı, 2010, 248 s.<br>17. Bakıxanov A. “Gülüstani İrəm”. Az. SSR EA. Bakı, 1951, 255 s.<br>18. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb”, 2007, | |

| | |
|---|---|
| | 424 s.<br>19. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı,"Şərq-Qərb", 2007, 312 s.<br>20. Qaşqay S. Manna dövləti. Bakı, “Azərnəşr”, 1993, 107 s.<br>21. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997 ci il). Bakı, “Elm”, 1999, 360 s.<br>22. Məmmədova F. M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, 74 s.<br>23. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi. Bakı, “Avrasiya Press”, 2006, 296 s.<br>24. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı, “Avrasiya press”, 2006, 416 s.<br>25. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, Nurlan”, 2003, 458 s.<br>26. Bayramlı Z., Şabiyev B. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). Bakı, “Avropa nəşriyyatı”, 2016, 344 s.<br>27. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. Bakı, 1979, 142 s.<br>28. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı, “Şərq-Qərb”, 2007, 344 s.<br>29. Fazili A. Atropatena (e.ə. IV-VII əsrlər). Bakı, “Elm”, 1992, 216 s.<br>30. Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1995, 200 s.<br>31. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998, 315 s.<br>32. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər Bakı, “Təhsil”, 2005, 380 s.<br>33. Qarabağ Azərbaycandır. Zəfər Epopeyası. Kollektiv monoqrafiya. Bakı, 2021, 600 s. |
| **Kursun təsviri** | “Azərbaycan tarixi” kursunun tədrisi zamanı Azərbaycanın ən qədim dövrlərdən bu günə qədər olan tarixi inkişafının bütün dövrləri əhatəli və lakonik şəkildə tələbələrə öyrədilir. O cümlədən Azərbaycanın etno-mədəni sferası, tarixi Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlər, maddi və mənəvi mədəniyyətinin öyrənilməsinə kursun tədrisi zamanı geniş yer verilir.<br>Fənnin tədrisi zamanı Azərbaycanda yaşayan, eyni zamanda ayrı-ayrı dövrlərdə bu bölgəyə miqrasiya edən müxtəlif xalqlar haqqında ətraflı məlumat verilir. Azərbaycanın siyasi və mədəni həyatında baş verən mühüm hadisələrin xronologiyası və inkişaf dinamikasına diqqət ayrılır. Azərbaycanın siyasi, ictimai və mədəni həyatınıda baş verən hadisələr təhlil edilərək ümumi qiymət verilir. O cümlədən Azərbaycan ərazisində ilk insan məskənlərinin meydana gəlməsi, arxeoloji mədəniyyətlər, erkən dövlətlər, Azərbaycana aid ilk və ən qədim yazılı mənbələr haqqında tələbələrə bilgilər verilir. Azərbaycana aid yazılı mənbələrin təhlili, erkən beynəlxalq münasibətləri, yadellilərə qarşı aparılan mübarizələr, ərəb istilaları, feodal münasibətləri, Azərbaycanda kapitalist münasibətlərinin formalaşması, tarixi Azərbaycan torpaqlarının işğalı və ikiyə bölünməsi, Rusiyaya qarşı Azərbaycan xalqının mübarizəsi, Azərbaycanın sovetlər tərəfindən işğalı, Azərbaycanın II dünya müharibəsində iştirakı, müstəqilliyin əldə edilməsi, birinci və ikinci Qarabağ savaşı və s. kimi mövzulara yer verilmişdir. |
| **Kursun məqsədi** | • Tələbələri təlim prosesinin qanunauyğunluğu ilə tanış etmək. |

<table>
<tr><td></td><td colspan="3">

- Azərbaycan tarixi ilə onları dərindən tanış etmək.
- Əldə edilən biliklərin praktikada tətbiqinə nail olmaq bacarığını aşılamaq.
- Tələbələrdə müasir dövrün tarixi hadisələrinə düzgün tənqidi yanaşma, obyektiv qiymətləndirmə, məntiqi mübahisələr aparma bacarıqları və vərdişləri formalaşdırmaq.

</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">

- Fənnin ümumi tədrisi prosesində tələbələrdə:
- Azərbaycanın ərazisi, əhalisi, təbii-coğrafi şəraiti, siyasi, mədəni, sosial və iqtisadi münasibətlərinə aid mühüm xüsusiyyətləri öyrənmək.
- Azərbaycan xalqının dünya tarixində özünəməxsus rolunu müəyyənləşdirmək.
- Azərbaycanın qədim dövlətçilik tarixi haqqında məlumata sahib olmaq.
- Yadelli işğallarına qarşı daim mübarizə aparmış, dil və mədəniyyətlərini inkişaf etdirərək onu saxlaya bildiklərini göstərmək.
- Qafqaz xalqları arasında ictimai-iqtisadi formasiyanın bütün sahələri üzrə aparıcı mövqeyə malik olduğunu göstərmək.
- İnkişaf etdiriləcək qabiliyyətlər:
- - analitik düşüncə
- -tənqidi təfəkkür
- -fikrin müstəqil ifadə edilməsi

</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td colspan="2">Mühazirə</td><td>X</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>X</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>X</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>X</td></tr>
<tr><td colspan="2">Digər</td><td>X</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%) bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>35 bal</td></tr>
<tr><td>Fəallıq</td><td>Sentyabr-Dekabr ayları ərzində</td><td>5 bal</td></tr>
<tr><td>Davamiyyət</td><td>Sentyabr-Dekabr ayları ərzində</td><td>5 bal</td></tr>
<tr><td>Təqdimat</td><td>Dekabr</td><td>5 bal</td></tr>
<tr><td>Kurs işi</td><td>Dekabr</td><td>10 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>40 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">

**Fəallıq/aktivlik**
Tam aktivlik balı dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda fəal iştirak edən tələbələrə verilir. Xəzər Universitetinin iştirakçısı olduğu layihədə aktiv fəaliyyət aktivlikdə nəzərə alınır.
**Davamiyyət**
Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbə üzürlü səbəbdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərdə iştirak edə bilmirsə, o zaman bu haqda fakültə dekanlığına və mühazirə müəllliminə məlumat təqdim etməlidir. Fənn üzrə ümumi dərs saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır. Bütün dərslərdə iştirak edən tələbə tam bal alır.
**Dərsə gecikmə**
Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayib yazılır. Buna

</td></tr>
</table>

baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.

**Təqdimat**

Azərbaycan tarixi kursuna uyğun olaraq, təyin olunmuş mövzu əsasında tələbə tərəfindən xüsusi təqdimat hazırlanıb təqdim edilir. Uğurlu və mövzunu ətraflı əhatə edən təqdimat tam bal alır.

**Kurs işi**

Azərbaycan tarixi kursuna uyğun olaraq təyin olunmuş mövzu ətrafında əhatəli, elmi və işin həcmi gözlənilməklə təqdim edilən kurs işi tam bal alır.

**Qeyd:** Plagiat halları qəti qadağandır! Plagiat halları aşkar edilən kurs işi ləğv olunur. Kurs işi ilə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir.

**Təqdimat və kurs işinin tərtibi qaydaları**

Azərbaycan tarixi ilə bağlı təyin olunan mövzu ətrafında kurs işinin hazırlanması zamanı aşağıdakılara diqqət yetirilməlidir:

- Kurs işi (təqdimatlar) mövzusu müəllim tərəfindən təqdim olunur. Planının hazırlanmasında tələbəyə istiqamət verilir. Mövzuya uyğun elmi ədəbiyyatlar tövsiyyə olunur.
- Plagiat halları qəti qadağandır!
- Mətn 14 şrift, Times New Roman və 1,5 interval ilə tərtib olunmalıdır.
- Kurs işi elektron və çap formatında təqdim edilməlidir.
- Təqdimat Power Point proqramında, slayd şəklində, elektron formada təqdim edilməlidir.
- Kurs işi və təqdimatda şəkil, cədvəl, xəritə və s. istifadə edilməlidir.
- Kurs işi ən azı 12, maksimum 15 səhifə aralığında olmalıdır. Mətn 10 səhifədən az ola bilməz.
- Təqdimat 8-15 slayd həcmində təqdim edilməlidir.
- Kurs işi və təqdimatlarda istinadların AAK-ın tələblərinə uyğun verilməsinə diqqət edilir.
- Kurs işi və təqdimatın başlığı (titul vərəqi) Xəzər Universitetinin qaydalarına uyğun tərtib olunmalıdır.
- Şəkil, xəritə və cədvəllər kurs içinin sonunda verilməli və sıraya uyğun nömrələnməlidir.
- Yüksək səviyyədə təqdim edilən təqdimat və təyin edilən mövzunu tam əhatə edən kurs işi tam bal alır.

**Azərbaycan tarixi fəninindən məşğələ (seminar) ilə bağlı qeydlər.**

1) Proqramdakı mövzulara semester ərzində şifahi cavab verilməli və tövsiyyə olunmuş yerli və xarici dildə olan ədəbiyyatlardan istifadə olunmalıdır. Tələbə məşğələ zamanı mövzunu aydın izah etməli, sual-cavabda fəal olmalı və faydalandığı mənbələri əsaslandırmalıdır.

2) Dərs zamanı müxtəlif ədəbiyyatlardan və mənbələrdən istifadə etməsini təsdiqləyən, xüsusi qeyd və tapşırıqları qeydə alan seminar dəftəri olmalıdır.

3) Məşğələ zamanı fəal olan tələbələr aktivlik balı ilə qiymətləndirilir. Aktivlik 5 baldır və hər dərs hazır olan tələbə sonda ən yüksək balı ala bilir.

**İmtahanlar.**

Aralıq imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar)

Mövzular: 1-ci və 7 –ci mövzular.

Final imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar)

| | |
|---|---|
| | Mövzular: 8-ci və 15-ci mövzular.<br>Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir.<br>Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına uyğun olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 və daha çox hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması,imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır.<br>**Tələbənin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini pozmaq və qeyri-etik hərəkətlər etmək, yersiz və icazəsiz müzakirələr aparmaq, mobil telefondan, dinləyici qurğu və radiodan istifadə etmək, həmin dərsə aid olmayan digər fəaliyyətlə (kitab oxumaq,yazmaq,şəkil çəkmək və s.) məşğul olmaq qadağandır. |

**Cədvəl dəyişdirilə bilər**

| **Həftə** | **Tarix (planlaşdırılmış saat)** | **Fənnin mövzuları** | **Ədəbiyyat** |
|---|---|---|---|
| **1** | | **Mövzu: Qədim Azərbaycan. Giriş.**<br>Fənn ilə tanışlıq. Azərbaycan haqqında ümumi bilgilər (müzakirələr). Azərbaycan haqqında ən qədim yazılı mənbələr, tarixşünaslıq.<br>Azərbaycan ərazisində ibtidai icma quruluşu. Paleolit, mezolit, neolit, eneolit və tunc dövrlərinin arxeoloji mədəniyyətləri. | Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı,1989, 328 s.<br>Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, 412 s.<br>Bakıxanov A. “Gülüstani İrəm”. Az. SSR EA. Bakı, 1951, 255 s.<br>Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı. "Elm". 2007. 520 səh. + 40 səh. illüstrasiya.<br>Avşarova İ.N., Pirquliyeva Q.Ə. Qafqaz arxeologiyası. Dərslik, Bakı, 2010, 248 s. |

| | | | |
|---|---|---|---|
| 2 | | **Mövzu: Azərbaycan ərazisində erkən dövlətlər.** Cənubi Azərbaycanda e.ə. III-II minilliklərdə erkən dövlətlərin yaranması. Kuti və Lullubi dövlətləri. Manna dövləti. Son tunc erkən dəmir dövründə Şimali Azərbaycanda sinifli cəmiyyətin formalaşması. Azərbaycan Midiya və Əhəmənilər imperiyasının tərkibində. Atropatena dövləti, Antik Qafqaz Albaniyası. Albaniyanın maddi irsi. | Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, 412 s. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı. "Elm". 2007. 520 səh. + 40 səh. illüstrasiya. Məmmədova F. M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, 74 s. Fazili A. Atropatena (e.ə. IV-VII əsrlər). Bakı, “Elm”, 1992, 216 s. |
| 3 | | **Mövzu: Azərbaycan erkən orta əsrlərdə.** Erkən orta əsrlərdə Azərbaycanda baş verən siyasi proseslər. Feodal münasibətlərinin yaranması (III-VII əsrlər). Albaniya dövləti ilkin orta əsrlərdə. Sasanilər dövründə Albaniyada siyasi-ictimai vəziyyət. Arşakilər sülaləsinin hakimiyyəti dövrü, Sasani mərzbanlığı dövrü, Mehranilər sülaləsinin hakimiyyəti dövrü. Mədəniyyət. | Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, 412 s. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. "Elm". 2007. 608 səh. - 24 səh. illüstrasiya. |
| 4 | | **Mövzu: Azərbaycan ərəb işğalları dövründə.** Azərbaycanın ərəblər tərəfindən işğalı. Xilafətin inzibati idarə sistemi-idarəçiliyi. Ərəblərə qarşı xalq üsyanlar. Xürrəmilər hərəkatı. İslam mədəniyyəti. Türk dilli xalqların Azərbaycana yürüşü. Azərbaycan xalqının etnogenezi və təşəkkülü. | Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, 412 s. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb”, 2007, 424 s. |
| 5 | | **Mövzu: Azərbaycan IX – XIII əsrlərdə.** Azərbaycanda ilk feodal dövlətlərin yaranması. Şirvanşahlar dövləti. Sacilər dövləti. Salarilər dövləti. Şəddadilər dövləti. Rəvvadilər dövləti. | Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, |

| | | | |
|---|---|---|---|
| | | Eldənizlər dövləti. Səlcuqların Qafqaza yürüşü. İntibah mədəniyyəti. Elm və təhsil. Orta əsrlərin şəhər mədəniyyəti. | 412 s. |
| **6** | | **Mövzu: Azərbaycan monqol və Teymurun işğalları dövründə.**<br>Monqolların Azərbaycana işğalçı yürüşləri. Monqolların yürüşü ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyəti. Hülakülər dövləti. Qazan xanın islahatları. Əmir Teymurun və Toxtamışın Azərbaycana yürüşü. Şirvanşah I İbrahim. XIII-XIV əsrlərdə Azərbaycan mədəniyyəti. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s.<br>Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, Nurlan", 2003, 458 s. |
| **7** | | **Mövzu: XV–XVII əsrlərdə Azərbaycan. Səfəvilər dövləti.**<br>XV-XVII əsrlərdə Azərbaycanda siyasi, ictimai və iqtisadi vəziyyət. Beynəlxalq diplomatik münasibətlər. Ağqoyunlu və Qaraqoyunlu dövlətləri. Qara Yusif və Uzun Həsən. Avropa ilə beynəlxalq münasibətlər. Səfəvilər dövlətinin yaranması və vahid Azərbaycan dövləti. Şah İsmayıl Xətainin daxili və xarici siyasəti. Osmanlı imperiyası ilə müharibələr. Çaldıran döyüşü. I Şah Təhmasib və I Şah Abbas. Mədəniyyət. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s.<br>Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı, "Şərq-Qərb", 2007, 344 s. |
| **8** | | **Mövzu: Azərbaycan XVIII əsrdə.**<br>Çar Rusiyasının Azərbaycana ilk basqıları. Səfəvilər dövlətinin süqutu. Nadir şahın Azərbaycan siyasəti. Azərbaycanda müstəqil xanlıqların yaranması. Şamaxı, Qarabağ, Quba, Bakı, Gəncə və s. xanlıqlarının daxili çəkişmələri. Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü. Mədəniyyət və ictimai vəziyyət. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s. |
| **9** | | **Mövzu: Azərbaycan XIX əsrdə.**<br>Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının başlanması. Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı. I və II Rusiya – İran müharibələrinin Azərbaycan üçün nəticələri. Gülüstan və Türkmənçay sülh müqavilələri. Azərbaycan torpaqlarının işğalının Rusiya tərəfindən başa çatdırılması. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. XIX əsrin birinci yarısında müstəmləkəçilik və ictimai zülmə qarşı mübarizə. Sosial – ictimai vəziyyət.<br>Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafı. XIX əsrin ikinci yarısında Azərbaycanda burjua islahatları, torpaq, inzibati-məhkəmə və hərbi islahatlar. Mədəniyyət, elm, təhsil və ədəbi görüşlər. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s.<br>Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. "Elm". 2007. 504 səh. + 48 səh. illüstrasiya. |
| **10** | | **Mövzu: XX yüzilliyin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. 1900-1920-ci illər.** | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan burjua demokratik inqilabı dövründə. Azərbaycan I Dünya müharibəsi dövründə. Fevral burjua inqilabı. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət və milli-demokratik hərəkatın güclənməsi. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci ilin mart soyqırımı. Mədəniyyət. | nəşriyyatı, 2016, 412 s. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya. |
| **11** | | **Mövzu: Azərbaycan Cümhuriyyəti .** 28 may 1918-ci il "İstiqlaliyyət bəyannaməsi" və Azərbaycan dövlətçiliyinin bərpası. Bakının azad edilməsi. Azərbaycan Parlamentinin açılışı və fəaliyyəti. Cümhuriyyətin sosial-iqtisadi, mədəni və siyasi fəaliyyəti. Ordu quruculuğu. Azərbaycan Cümhuriyyətinin xarici siyasəti. Azərbaycan Cümhuriyyətinin Paris sülh konfransında tanınması. Azərbaycan Cümhuriyyətinin süquta uğraması. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s. |
| **12** | | **Mövzu: Azərbaycan Sovet imperiyasının tərkibində (1920-1940)** 1920-ci il aprelin 28-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı. Azərbaycan 1920-30-cu illərdə. Ermənilərin Azərbaycana qarşı torpaq iddiaları. DQMV-nin və Naxçıvan MSSR-in yaradılması. Azərbaycanda ictimai siyasi və iqtisadi həyat. Kənd təsərrüfatı və sənayenin inkişafı. Kollektivləşdirmə. Azərbaycanda kütləvi repressiyalar. Təhsil sistemi və elm. Əlifba islahatları. Mədəni quruculuq. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya. |
| **13** | | **Mövzu: Azərbaycan ikinci dünya müharibəsi və ondan sonrakı dövrdə. 1939-1950-ci illərdə.** Azərbaycan Böyük Vətən müharibəsi illərində. Bakı nefti. Azərbaycanlılardan ibarət diviziyalar. Azərbaycan müharibədən sonrakı quruculuq illərində (1946-1950-ci illər). Azərbaycanda siyasi-ictimai və iqtisadi vəziyyət. | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s. |
| **14** | | **Mövzu: Azərbaycan XX əsrin 60-90-cı illərində.** Azərbaycan 1965-1980-cı illərdə. 1969-cu ilin iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinin Heydər Əliyevə tapşırılması. 1969-1982-ci illərdə respublikada 213 iri sənaye müəssisəsinin işə salınması. 1978-ci ilin aprel ayında Azərbaycan SSR-in yeni Konstitusiyasının qəbul edilməsi. 1970-1988-ci illərdə Azərbaycanda siyai-iqtisadi həyat. Yenidənqurma siyasətinin neqativ nəticələri. Azərbaycanlıların tarixi yurdlarından – Ermənistan ərazisindən qovulması. 1960-90-cı | Azərbaycan tarixi. Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016, 412 s. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya. |

| | | | |
|---|---|---|---|
| | | illərdə ədbi mühit, elm və mədəniyyət. | |
| **15** | | **Mövzu: Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi və onun möhkəmləndirilməsi uğrunda mübarizə (XX əsrin sonu XXI əsrin əvvəlləri).**<br>Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması. 1991-ci il oktyabr ayının 18-də müstəqilliyin əldə edilməsi. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı. 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı. Atəşkəsin imzalanması. Əsrin müqaviləsi. 2003-cü ildə İlham Əliyevin hakimiyyətə gəlməsi. Azərbaycanın daxili və xarici siyasəti. Sosial və ictimai mühit. İqtisadi inkişaf. Azərbaycanın Cənubi Qafqazda lider dövlətə çevrilməsi. 2020-ci ilin 27 sentyabr - 10 noyabr II Qarabağ müharibəsi. Azərbaycanın Zəfəri. 44 günlük Vətən müharibəsi və Qarabağ münaqişəsinin həlli. | Azərbaycan tarixi. Dərslik. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2016, 412 s.<br>Qarabağ Azərbaycandır. Zəfər Epopeyası. Kollektiv monoqrafiya. Bakı, 2021, 600 s. |